# İSTANBUL ŞAMİL VƏQFİNDƏ MARAQLI TƏDBİR

Bu ilin fevralın 2-də Türkiyənin İstanbul şəhərindəki Şamil Vəqfində maraqlı tədbir keçirilmişdir. Adətən hər ayın ilk bazar günü çay süfrəsi arxasında keçirlən toplantıya bu dəfə əslən Azərbaycanın Quba rayonundakı Qrız kəndinin Binnətoğlu nəslindən olan Abdullah Qubalı məruzəçi olaraq dəvət edilmişdi. Vəqfin divarlarından Bakıda nəşr olunan "Samur" qəzetinin sayları və Qrız kəndinin foto-şəkilləri asılmışdı.



Abdullah Qubalı qonaqları salamlayaraq coğrafiyanın insana sadiq, vəfalı və dürüst olduğunu bildirərək, "Mən bu gün sizlərə çaylardan, dağlardan, daşlardan, mağaralardan bəhs edəcəyəm, çünkü onlar bizim əlimizdən tutaraq tarixin dərinliklərinə aparır," – dedi.

Türkiyənin Qars şəhəri yaxınlığından baş götürüb, Xəzər dənizinə tökülən Kür çayından bəhs edən natiq dedi: "Kür sözü ləzgi dilində çay, su mənalarını verir. Maraqlıdır ki, Qarsın Bəndivan və Ağzıaçıq köylərində aparılan arxeoloji qazıntılarda herlərə aid materiallar aşkar olunmuşdur. Təsadüfi deyil ki, babamın köyü Qrızın qonşuluğundakı Haput kəndinin sakinləri özlərini "her" adlandırırlar. Bu kəndin camaatı suya kür deyir. Bu, təsadüfi deyil. Qaldı ki, Maykopda və Kubanda da iki çayın adı Kürdür. Bütün bunlar Qafqaz mədəniyyəti ərazisinin nə qədər geniş olduğunu göstərir".

Sözü ata-baba mirası olan yer adlarına gətirib çıxaran A.Qubalı Qudyal çayının adını ilk dəfə duyduğunda bu sözə məna vermədiyini, fəqət daha sonra ləzgi dilində "sad, qud" saylarını eşidəndə bir uşağın ilk dəfə dilinin açılıb söz deməyinin sevincini yaşadığını, Qudyalın da "dörd" sayıyla bağlılığının fərqində olduğunu anlatdı. Qrızdaki düzənliyin at təlimləri üçün keçmiş yüzilliklərdə açıldığını, atasının da ona öz ata-babalarından söhbət edəndə "Mənim babam Şeyx Şamil vaxtı goca kişi olub, ruslarla hərbə gedib qayıdanların atlarının tərini soyudub dincəlmiş atlarla onları yola salırdı," sözlərinin yadına düşdüyünü söylədi.

Daha sonra A.Qubalı dil bəhsinə keçdi. Quzey-Doğu Qafqaz coğrafyası dil ailəsini təsnif edərkən Çeçenistan, Dağıstan və Azərbaycanın quzeyindəki dillərə, bu dillərin oxşarlığına və fərqli xüsusiyyətlərinə diqqət çəkdi. Ləzgi dilinin Cənubi Dağıstanın və Şimali Azərbaycanın ortaq dili olduğunu diqqətə çəkərək, bu adın içində avar, lak, tabasaran, dargi kimi xalqların da yer aldığını açıqladı.

Daha sonra natiq Xaçmaz, Xudat, Qusar rayonları ilə Xınalıq, Qəçreş, Elig kəndlərinin qədim mənbələrdə Khaçmaz, Khudat, Khusar, Khaçhmaz, Khınalluq, Gerçhresh, Alich kimi yazıldığını diqqətə çəkdi. Çar ve Sovetler vaxtında xalqlara, dillərə, inançlara basqı olduğunu yada salan Abdullah Qubalı "təəssüf ki, hazırda Azerbaycanda yer adlarına yetərli dərəcədə əhəmiyyət verilmir," - deyə bildirdi.

Toplantıya gələnlər Sədaqət Kərimovanın "Mənim doğma elim" video-filminə birgə tamaşa etdilər. Sonra onlar "Samur" qəzetinin önündə şəkil çəkdirərək qəzetin rəhbərliyinə və oxucularına salam yetirdilər.

**WWW.SAMURPRESS.NET**